# AZƏRBAYCAN RESPUBLİKASINDA TİBB ELMİNƏ VƏ SƏHİYYƏYƏ KİTABXANA-İNFORMASİYA XİDMƏTİ

**Hicran Zeynalova**

*BDU, Kitabxanaşünaslıq kafedrasının müəllimi*

Azərbaycanda tibb elminin və səhiyyənin ilkin sənədlərlə və ikinci səviyyəli informasiya ilə təmin edilməsi məqsədilə bitkin bir sistem formalaşdırılmışdır. Bura ilk növbədə tibb kitabxanaları və elmi tibbi informasiya bölmələri aiddir. Həmin təşkilatlar içərisində aparıcı mövqe Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Dövlət Elmi Tibb Kitabxanasına məxsusdur.

Tipoloji baxımdan xüsusi (sahəvi) elmi kitabxana olan Respublika Dövlət Elmi Tibb Kitabxanası Azərbaycan SSR Xalq Komissarları Soveti tərəfindən 29 yanvar 1939-cu ildə 5/386 saylı əmr əsasında yaradılmışdır. 9 mart 1940-cı ildə Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığının 156 saylı əmri ilə fəaliyyətə başlamışdır.

Fəaliyyətə başladığı dövrün çətinliklərinə baxmayaraq kitabxana ilk gündən respublikada tibb və səhiyyə sahəsində kitabxana-informasiya xidməti göstərən müəssisələri öz ətrafında səfərbər edərək fəaliyyətin kordinasıyasına çalışmışdır. Kitabxana səhiyyə müəssisələri sisteminə daxildir və Səhiyyə Nazirliyinin tabeliyindədir. Azərbaycan Respublikasında tibb kitabxanaları şəbəkələrinə təşkilati-metodik rəhbərliyi və onların əlaqəli fəaliyyətini həyata keçirmək, elmi-təqiqat institutlarının, ali və orta tibb təhsil müəssisələrinin elmi tibbi informasiya şöbələrinin fəaliyyətinə metodiki və koordinasiyası üzrə rəhbərliyi həyata keçirir. Sahəvi depozitar kitabxana və tibb elminin aktual problemləri üzrə vahid sorğu-məlumat fondlarını təşkil edir.

Hazırda, Respublika Elmi Tibb kitabxanası bütün tibb müəssisələri və tibb sahəsində təhsil müəssisələrini əhatə etməklə yanaşı Naxçıvan Muxtar Respublikasından da kitabxana-informasiya xidmətinin təşkili ilə əlaqədar illik hesabatlar alır. Naxçıvan Muxtar Respublikası Elmi-Tibb kitabxanası, Naxçıvan Respublika xəstəxanası, Şərur RMX, Sədərək RMX, Babək RMX, Culfa RMX, Ordubad RMX, Şahbuz RMX, Kəngərli RMX metodik mərkəz olaraq mütəmadi hesabatlarını göndərir və Respublika Elmi Tibb Kitabxanası sisteminə daxildirlər.

Sistem regional prinsipə əsaslanır və metodiki rəhbərlik yuxarıdan aşağıya tabeçilik qaydasında həyata keçirilir. Kitabxana sisteminin müasir tibbi ədəbiyyatla komplektləşdirilməsi işini komplektləşdirmə şöbəsi hə-

yata keçirir. Kitabxana şəbəkəsini yeni nəşrlərlə təmin etmək bildiyimiz kimi böyük maliyyə vəsaiti tələb etdiyindən şöbə informasiya təminatının elektron resurslar vasitəsi ilə həyata keçirilməsinə üstünlük verir. Tibb və səhiyyə sahəsində informasiya kütləsi sürətlə yenilənir və bu istiqamətdə Azərbaycan mütəxəssislərinin informasiya ehtiyacının öyrənilməsi, qiymətləndirilməsi və yeni xidmət formalarının tətbiqinə ehtiyac mövcuddur. Bu istiqamətdə Respublika Elmi Tibb Kitabxanasının əməkdaşları ilə birlikdə 2019-cu ildə sosioloji sorğu həyata keçirilib. (Sosioloji sorğunun təhlili müstəqil məqalənin obyektidir)

Azərbaycan Respublikası Elmi Tibb Kitabxanası 2020-2021-ci illər. Ərzində pandemiyanın elan olunması ilə başlanan xüsusi rejimdə fəaliyyətini qurmuş və mütəxəssislərə kitabxana-informasiya xidmətini davam etdirmişdir.